# LOVOL TD 1654
## Universal traktor




**Lovol TD1654 modeli** -iri təsərrüfatlar, quru sahələr və çoxşaxəli kənd təsərrüfatı işləri üçün nəzərdə tutulmuş güclü traktordur. Torpaq hazırlanması, və ağır torpaq işlərini yüksək effektivliklə yerinə yetirir. 165 at gücündə mühərrik və gücləndirilmiş konstruksiya ağır iş şəraitində stabil və etibarlı performans təmin edir. 16 irəli + 8 geri ötürmə qutusu müxtəlif iş rejimlərinə uyğunlaşaraq rahat idarəetmə imkanı yaradır. Lovol TD 1654 modeli iri və orta təsərrüfatlar üçün güc, dayanıqlılıq və universallığı bir araya gətirən etibarlı həll təqdim edir.

LOVOL TD1654



## Maksimum güc və dayanıqlılıq

6 silindrli Weichai mühərrik yüksək güc ehtiyatı və davamlı performansı ilə ən çətin sahə şəraitində belə sabit işləmə təmin edir, məhsuldarlığı maksimum səviyyəyə çatdırır.



## Gücləndirilmiş hidravlik qaldırıcı qollar

İki tərəfli hidravlik silindrlər ağır aqreqatlarla işləyərkən yüksək qaldırma gücü və sabitlik təmin edir, torpaq becərmə prosesində maksimum effektivlik yaradır.



## Çevik ötürmə sistemi

Sinxronlaşdırılmış 16 irəli + 8 geri ötürmə qutusu sürətlərin rahat dəyişdirilməsini təmin edir. Geniş sürət diapazonu müxtəlif iş rejimlərinə uyğunlaşaraq sahədə optimal güc ötürülməsi və yüksək məhsuldarlıq yaradır.



## Hidravlik qoşulma çıxışları

3 cüt hidravlik çıxış və fasiləsiz axın funksiyası müxtəlif aqreqatlarla effektiv və fasiləsiz işləməyə imkan yaradır. Güclü hidravlik sistem sabit performans təmin edərək iş prosesinin səmərəliliyini artırır.

# TEXNİKİ GÖSTƏRİCİLƏR

| Model | TD 1654 | |
|---|---|---|
| | Göstəricilər | Vahid |
| İstehsalçı ölkə | ÇXR | / |
| Mühərrikin modeli | Weichai WP7H | / |
| Mühərrik | 6 silindr | / |
| Mühərrikin həcmi | 6.8 lt | lt |
| Mühərrikin tipi | Dizel | / |
| Mühərrikin diskli valının fırlanma tezliyi | 2200 | dövr/dəq |
| Traktorun at gücü | 165 | at gücü |
| Yanacaq çəninin həcmi | 280 | lt |
| Sürətlər qutusunun növü | Mexaniki | / |
| Sürətlər qutusu | 16 irəli+8 geri | / |
| Sürət aralığı | 1.65-35.44 | km/s |
| Quyruq mili dövrlərinin sayı | 540/1000 | dövr/dəq |
| Ön təkər ölçüləri | 14.9-26 | / |
| Arxa təkər ölçüləri | 18.4-38 | / |
| Təkər formulu | 4x4 | / |
| Arxa hidravlik çıxışların sayı | 6 | ədəd |
| Arxa qaldırıcı qolların yükqaldırma qabiliyyəti | 4500 | kq |
| Kondisioner | Mövcuddur | / |
| Traktorun uzunluğu | 5075 | mm |
| Traktorun eni | 2285 | mm |
| Traktorun hündürlüyü | 3035 | mm |
| Təkər bazası | 2700 | mm |
| Klirens | 470 | mm |
| Ön yüklər | 440 | kq |
| Arxa təkər yükləri | 240 | kq |
| Traktorun çəkisi | 6130 | kq |